Müstəqillik dövrünün uğurları 25

# Azərbaycanda insan hüquqlarının müdafiəsində yeni mərhələ

**Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.**

**Heydər ƏLİYEV**

Müstəqilliyimizin bərpa olunması dövründə ən mühüm hadisələrdən olan 1993-cü ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıtması ölkəmizin hərtərəfli inkişafına güclü təkan vermişdir. Azərbaycan qısa tarixi dövrdə hərtərəfli, ardıcıl, sistemli islahatlar nəticəsində iqtisadi, sosial, mədəni sahələrdə, habelə xalqımızın layiqli həyat səviyyəsi, rifahının yüksəlməsi ilə yanaşı, insan hüquq və azadlıqlarının təmin edilməsində də böyük uğurlar əldə edib. Ölkəmiz 250-dən çox beynəlxalq konvensiyaya qoşulub, bunlara uyğun yüzlərlə qanunvericilik, normativ-hüquqi aktlar qəbul olunub, bu sənədlərin icrasını təmin etmək üçün institutlaşma, müvafiq dövlət qurumlarının yaradılması prosesi həyata keçirilib.



2001-ci il yanvarın 25-də Azərbaycan Avropa Şurasına üzv seçilib, həmin il dekabrın 25-də "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası ratifikasiya olunub və bəzi ölkələrdə uzun illər davam etsə də, ölkəmizdə cəmi üç gün sonra, 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya statuslu qanun qəbul olunub. 5 mart 2002-ci ildə isə ölkə Prezidenti tərəfindən həmin qanunun tətbiq edilməsi haqqında fərman imzalanıb və beləliklə də təsisatın yaradılması və fəaliyyət göstərməsi üçün hüquqi və maddi baza yaradılıb.

Ölkəmizdə ilk dəfə yaranmış, məqsədləri məhkəmədənkənar insan hüquqları və azadlıqlarının müdafiəsi olan bu qurum qısa müddətdə insanların hüquqi maarifləndirilməsinə, hüquq düşüncəsinin və hüquq mədəniyyətinin, dövlətimizin demokratik idarəetməsinin daha da təkmilləşməsinə, sabitliyə, davamlı inkişafa, yeni uğurlara dəstək verdi, habelə beynəlxalq ombudsmanlar qurumları arasında təşəbbüsləri, innovativ yanaşmaları ilə özünə layiqli yer tutdu.

2002-ci il 24 avqust tarixində keçirilmiş referendumla ilk müstəqil Azərbaycan Respublikasının Konstitusiyasına bir sıra əlavə və dəyişikliklər edilmiş, eyni zamanda 95, 109 və 130-cu maddələrə İnsan Hüquqları üzrə Müvəkkilin seçilməsi və fəaliyyətinin əsasları ilə bağlı bəndlər daxil edilməklə praktiki olaraq Ombudsmanın Konstitusiya statuslu bir qurum olması Əsas Qanunumuzda təsbit olundu.

Ombudsman haqqında Konstitusiya Qanununa uyğun olaraq ümummilli lider Heydər Əliyevin təqdim etdiyi üç şəxsdən biri 2 iyul 2002-ci il tarixdə yeddi illik müddətə ölkənin ilk Ombudsmanı seçildi. Yeri gəlmişkən, 5 mart 2010-cu ildə ikinci dəfə həmin müddətə ölkə Prezidenti İlham Əliyevin təqdim etdiyi üç şəxsdən biri Ombudsman seçildi.

Dünya təcrübəsində Ombudsman institutunun üç modeli fərqləndirilir. Bu modellər bir-birindən dövlət-hüquqi sistemində onların yeri, təyin olunma qaydası, hakimiyyətin bu və ya digər qoluna tabe olması və ya geniş səlahiyyətinin olmaması və s. görə seçilir. Bu modellərdən biri icraedici ombudsmandır ki, o icra hakimiyyətinin orqanı hesab olunur, hökumət və ya prezident tərəfindən təyin edilir, onun nəzarəti altındadır və ona hesabat verir. Məsələn, Fransada bu vəzifəni tutan şəxs Nazirlər Şurası tərəfindən təyin olunur. Oxşar institut indiyədək ümumi ombudsmanı olmayan ABŞ-ın bəzi ştatlarında da fəaliyyət göstərir. Başqa bir model parlament ombudsmanıdır ki, o da hakimiyyətin qanunvericilik sistemindədir, parlament tərəfindən seçilir, ona hesabat verir, və ya onun nəzarəti altındadır. Bir sıra ölkələrdə ombudsman "parlament müvəkkili" adlanır (məsələn, Ukraynada Ali Radanın insan hüquqları üzrə müvəkkili). Nəhayət üçüncüsü, müstəqil ombudsman modelidir ki, qanunverici, icra və ya məhkəmə hakimiyyətinə aid olmadan hakimiyyətin xüsusi müstəqil qoludur. O, prezident və ya parlament tərəfindən təyin olunur və ya seçilir, lakin bundan sonra tam müstəqil fəaliyyət göstərir. Ombudsmanın belə modeli bir sıra dövlətlərdə (Portuqaliya, Niderland və s.) mövcuddur. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili də məhz bu modelə aiddir.

Azərbaycan Ombudsmanının müstəqilliyi Konstitusiya qanununda birbaşa göstərilmişdir. Eyni zamanda bu qanuna əsasən müvəkkil seçildiyi gün Azərbaycan Respublikası Milli Məclisinin iclasında and içir: "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili vəzifəsində səlahiyyətlərimi şərəf və ləyaqətlə yerinə yetirəcəyimə, Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına əməl edəcəyimə, müstəqil və qərəzsiz fəaliyyət göstərəcəyimə and içirəm". Bu andda da onun müstəqilliyi vurğulanır.

Konstitusiya qanununda "Müvəkkilin müstəqilliyinin təminatları" ayrıca maddədə göstərilmişdir. Belə ki, müvəkkil müstəqildir və yalnız Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına tabedir, həmçinin fövqəladə və ya hərbi vəziyyətin elan edilməsi müvəkkilin fəaliyyətini dayandırmır və ya məhdudlaşdırmır. Həmin maddəyə əsasən, müvəkkilin dəyişilməzliyi, toxunulmazlığı, hər hansı dövlət və ya yerli özünüidarə orqanı, vəzifəli şəxs tərəfindən onun fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi, maddi və sosial təminatlar onun müstəqilliyinin təminatıdır. Ombudsman haqqında Konstitusiya qanununa əsasən cari il bitdikdən sonra 2 aydan gec olmayaraq müvəkkil ölkədə insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikası Prezidentinə illik məruzəsini təqdim edir və həmin məruzə ilə Azərbaycan Respublikası Milli Məclisi qarşısında çıxış edir. Müvəkkilin illik məruzəsində ölkədə insan hüquqları ilə bağlı vəziyyət, həmçinin insan hüquqlarını pozan, onun tələbləri ilə hesablaşmayan dövlət və yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin adları çəkilir və bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat verilir, habelə insan hüquqlarının daha səmərəli müdafiəsinə, mövcud vəziyyətin təkmilləşdirilməsinə və idarəetmənin demokratikləşməsinə yönəlik qərarlar qəbul edir, təklif və tövsiyələr verilir. Qeyd olunmalıdır ki, Milli Məclis tərəfindən müvəkkilin hər bir illik məruzəsi dinlənildikdən sonra "nəzərə alınması" qərarı qəbul edilir.

Ölkəmizdə Ombudsman təsisatının yaradılması ulu öndər Heydər Əliyevin, bu təsisatın inkişafı isə möhtərəm Prezident İlham Əliyevin adı ilə bağlıdır. Yarandığı gündən təsisat konstitusiya qanununa uyğun olaraq müvafiq dövlət qurumları ilə əməkdaşlıq edir. Demək olar ki, ilk günlərindən Ombudsman öz fəaliyyətini parlamentlə sıx əlaqədə qurmuşdur.

Konstitusiya qanununun 1.5-ci maddəsinə əsasən müvəkkil Milli Məclisə insan hüquq və azadlıqlarının təmini məqsədilə qanunların qəbul edilməsinə və ya yenidən baxılmasına dair təkliflər verə bilər. Bu baxımdan əməkdaşlıq belə qurulmuşdur: Yeni hazırlanan qanun layihələrinin və qüvvədə olan qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı ekspert qismində təkliflərin verilməsi, ölkəmizin tərəfdar çıxmadığı beynəlxalq müqavilələrə qoşulması ilə bağlı təkliflərin verilməsi.

Ombudsman fəaliyyəti dövründə çoxsaylı normativ-hüquqi aktlarla bağlı öz təklif və tövsiyələrini Milli Məclisə təqdim etmişdir. Eyni zamanda dəyərli bir təşəbbüsdür ki, parlamentin plenar iclaslarında gündəliyə və komitələrində müzakirəyə çıxarılacaq Məcəllələr, qanunlar və digər normativ-hüquqi aktların layihələri Ombudsmana göndərilir və təsisatda müzakirə edildikdən sonra təkliflər hazırlanaraq parlamentə təqdim edilir ki, bu da qanunvericiliyimizin daha da təkmil olması üçün zəmin yaradır.

Bununla yanaşı, Parlamentə bir sıra qanunlar bizim də təkliflər nəzərə alınmaqla qəbul edilmişdir. Belə ki, "Gender (kişi və qadınların) bərabərliyinin təminatları", "Məişət zorakılığının qarşısının alınması", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi" haqqında və başqa qanunlar bu qəbildəndir. "Reproduktiv sağlamlıq", "Uşaqların cismani cəzadan müdafiəsi", "Əlilliyi olan şəxslərin hüquqları" haqqında qanunların da qəbul edilməsini təklif etmişik və əminik ki, yaxın zamanlarda bu qanunlar da qəbul ediləcəkdir.

Beynəlxalq sənədlərə qoşulmaqla da bağlı əməkdaşlıq əlaqələri qurulmuş, təklifimizlə "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında", "Əlillərin hüquqları haqqında" konvensiyalar, həmçinin "İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiyanın Fakültətiv Protokolu ratifikasiya olunmuş, "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurasının Konvensiyası imzalanmışdır ki, bu sənədin və Avropa Şurasının "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" Konvensiyanın da ratifikasiya olunması da təklif edilmişdir.

Yeri gəlmişkən, təklifimizlə Milli Məclisdə Ailə, qadın və uşaq məsələləri komitəsi yaradılmışdır.

Məlum olduğu kimi, hər il Azərbaycan Respublikasının dövlət büdcəsi zərfi Milli Məclisin komitələrində müzakirəyə çıxarılır. Həmin iclaslarda bir qayda olaraq müvəkkil də iştirak edərək öz təklif və tövsiyələrini verir. Bunun da nəticəsində xüsusi təyinatlı ixtisaslaşmış tibb müəssisələrinin dərman və maddi-texniki təchizatının yaxşılaşdırılması məqsədilə müvafiq sahəyə ayrılan vəsait əlavə olaraq 3 milyon manat, həmçinin psixonevroloji müəssisələrdə müalicə olunan hər bir xəstə üçün orta sutkalıq ərzaq normasına ayrılan vəsaitin məbləği 5 dəfəyədək artırılmışdır. Yeri gəlmişkən, dövlət büdcəsindən "Şəkərli diabet üzrə Tədbirlər Porqramı"nın maliyyələşməsi üçün ötən illərlə müqayisədə 9 milyondan 33 milyona çatan vəsait daha da artırılaraq 2016-cı ildə 40 milyon manata çatmışdır. Bu cür misallar çoxdur.

Ümumiyyətlə, fəaliyyəti dövründə Ombudsman tərəfindən səlahiyyətli dövlət qurumlarına - Azərbaycan Respublikası Prezidenti Administrasiyasına, Milli Məclisə, Nazirlər Kabinetinə, nazirliklərə və komitələrə 500-dən çox təkliflər verilmişdir ki, onların da yarıdan çoxu təmin olunmuş, bəziləri icraat mərhələsindədir.

Əldə edilmiş bütün uğurlar 25 illik müstəqillik tariximizlə bilavasitə bağlıdır. Ötən dövrdə dövlətimiz tərəfindən daim insan hüquqlarının təmininə böyük diqqət yetirilmişdir. Hələ 1998-ci ildə Prezident Heydər Əliyev tərəfindən ölkəmizdə insan hüquqları sahəsində ilk strateji dövlət sənədi olan "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli fərman imzalanmış, həmin ilin 18 iyun tarixində "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edilmişdir. İlk dəfə "İnsan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkilli təsisatının yaradılması" da bu Dövlət Proqramında təsbit olunmuşdur. Müvəkkilin təklifi ilə dövlət başçısı cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli sərəncamına əsasən, bu tarix respublikamızda Milli İnsan Hüquqları Günü kimi qeyd olunur.

Hər il 18 iyun-İnsan Hüquqları Gününə həsr olunmuş Ombudsmanların Bakı Beynəlxalq Konfransı təşkil olunur. Artıq 13 belə konfrans uğurla keçirilmişdir. Bu konfranslarda 60-dan çox ölkənin ombudsmanları və insan hüquqları sahəsində tanınmış ekspertlər iştirak etmiş, Bakı bəyannamələri qəbul edilmiş və həmin ekspertlər bu sənədlərin icrasına qatılmışlar. Ötən dövrdə həmin konfransda iştirak edən qonaqları ölkə Prezidenti və Milli Məclisin rəhbərliyi də qəbul etmişlər.

İnsan hüquqları sahəsində həyata keçirilən islahatların məntiqi davamı olaraq, bu sahədə ikinci strateji sənəd olan "Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" Prezident İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə təsdiq olunmuşdur. Bu sənəd insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir.

Normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, elmi-analitik işlərin stimullaşdırılması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələri müəyyən edən, insan hüquq və azadlıqlarının daha səmərəli təmini istiqamətində yeni prioritetlər nəzərə alınmaqla 27 dekabr 2011-ci il tarixdə ölkə Prezidentinin sərəncamı ilə üçüncü strateji sənəd - Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı (MFP) təsdiq edildi. Bu proqramın icrasına 43 dövlət qurumunun, o cümlədən yerli icra hakimiyyəti orqanlarının cəlb olunması həmin sənədin icra mexanizminin effektivliyinə yönəlmişdir.

Milli Fəaliyyət Planında olduğu kimi, adı çəkilən proqramın həyata keçirilməsinin əlaqələndirilməsi, monitorinqi və qiymətləndirilməsi üzrə İşçi qrupunun fəaliyyətinə rəhbərlik Ombudsmana tövsiyə edilmiş, bir çox dövlət qurumlarını və vətəndaş cəmiyyəti təsisatlarını birləşdirən şəbəkə şəklində fəaliyyət təmin olunmuş, ötən müddətdə bu sənədlərdə nəzərdə tutulmuş bir çox məsələlər tam icra olunmuşdur.

Ombudsmanın cəmiyyətə gətirdiyi yeniliklərdən biri də rəğbətlə qarşılanan və hər iki strateji sənədin icrasının səmərəliliyinin artırılması üzrə təşəbbüslərindən ictimai iştirakçılığın bir forması olan ictimai dinləmələrlə bağlıdır. Belə ki, icrası dövrü ərzində bu sənədlərin icrasının monitorinqi məqsədilə müntəzəm olaraq ölkənin hər bir şəhər və rayonunda Milli Məclis deputatlarının, yerli icra hakimiyyəti, məhkəmə və digər hüquq mühafizə orqanlarının, bələdiyyələrin, yerli QHT-lərin, KİV-in, habelə yerli icmaların nümayəndələrinin iştirakı ilə ictimai dinləmələr keçirilmişdir. Ölkəmiz üçün yenilik olan, aşkarlıq və kütləvilik prinsipinə əsaslanan ictimai dinləmələr iştirakçıların fəallığı şəraitində keçirilməklə böyük marağa səbəb olur. Məsləhətləşmə xarakterli bu ictimai dinləmələr həmin sənədlərin səmərəli icrasına, həmçinin insanların öz fikir və təkliflərini sərbəst surətdə ifadə etməsinə, bütün hüquqların hər bir kəsə, heç bir ayrı-seçkiliyə yol verilmədən məxsusluğu fikrinin möhkəmlənməsinə, bütövlükdə demokratik, layiqli idarəetmənin təkmilləşməsinə təkan verir. Belə tədbirlərdə yüzlərlə insan iştirak edir.

2011-ci ildə Ombudsman haqqında Konstitusiya qanununa edilən yeni əlavə və dəyişikliklərdən biri işgəncə əleyhinə milli preventiv mexanizmlə bağlıdır. Məlum olduğu kimi, 2008-ci il dekabrın 2-də ölkəmiz tərəfindən ratifikasiya edilən "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültətiv Protokolunun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009-cu il tarixli sərəncamı ilə adı çəkilən sənəddə nəzərdə tutulmuş milli preventiv mexanizm (MPM) funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir. Qanuna görə Müvəkkil işgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədilə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi 240 müəssisəyə müntəzəm surətdə və ya zəruri saydığı istənilən halda baş çəkir.

Həyata keçirilən başçəkmələr saxlanılan şəxslərlə rəftar və onların saxlanılma şəraitinin təkmilləşdirilməsi baxımından ölkədə həyata keçirilən islahatlara mühüm töhfə vermişdir. Başçəkmələr zamanı rəftar və saxlanılma şəraiti ilə yanaşı, sənədləşmə, habelə məhkumların islah edilməsinə yönəlmiş yanaşmalar, onların asudə vaxtının təşkili, tibbi xidmətin vəziyyəti, gəzinti, telefon danışıqları, görüş hüquqları, qida rasionu, qidanın keyfiyyəti kimi məsələlərə xüsusi diqqət yetirilmişdir.

Beləliklə, Ombudsmana insan hüquqlarının müdafiəsinin təmin olunması ilə bağlı səlahiyyətləri genişlənməklə preventiv funksiyalar da verilmişdir ki, bu da müvafiq hüquqi və infrastruktur islahatlara, müvafiq müəssisələrdə yaşayan və saxlanılan şəxslərlə rəftar məsələlərinə, onların hüquqlarının təmininə dəstək olmuşdur.

Konstitusiya qanununa görə, müvəkkil əfv verilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə, amnistiya elan edilməsi barədə Milli Məclisə təkliflər verə bilər. Yeri gəlmişkən, hər ayın sonuncu iş günündə təsisata məhkumlardan və onların ailə üzvlərindən əfvlə bağlı olan müraciətlər araşdırılaraq qanunvericiliyə uyğun olaraq təkliflər verilir. Artıq vəsatətimlə 500-dən çox insan əfv edilmişdir.

Azərbaycan yeganə ölkədir ki, humanizm siyasətinə uyğun olaraq qısa müddət ərzində 61 əfv sərəncamı imzalanmış və 11 amnistiya aktı qəbul olunmuşdur. Bu amnistiya aktlarından dördü Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuşdur. 10 min məhkuma şamil edilən, 3500 məhkumun isə azadlığa çıxmasını təmin edən sonuncu amnistiya aktının qüvvəyə mindiyi 15 iyun - Milli Qurtuluş Günü tarixindən icrasına başlanılmış, Ombudsman və əməkdaşları bununla bağlı penitensiar müəssisələrdə keçirilən bu prosesdə iştirak etmişlər.

Müraciətlərimiz nəticəsində minlərlə insanın hüququnun təmin edilməsinə də nail olunmuşdur. Belə ki, müvəkkil Konstitusiya qanununa uyğun olaraq şəxsin hüquqlarının qüvvədə olan normativ aktlarla pozulduğu hallarda Konstitusiya Məhkəməsinə sorğu ilə müraciətlər etmişdir. Konstitusiya Məhkəməsinə ünvanladığımız 34 sorğudan 20 iş üzrə Plenum tərəfindən baxılaraq qərarlar (onlardan üçü qərardad olmaqla), on üç iş üzrə isə Palata tərəfindən istər nəzəri, istərsə də təcrübi əhəmiyyət kəsb edən genişləndirici şərhləri özündə ehtiva edən qərardadlar, 1 sorğu üzrə Plenumda baxılmaq üçün qərardad qəbul edilmişdir.

Ötən dövr ərzində dövlət qurumları ilə yanaşı, vətəndaş cəmiyyəti institutları, o cümlədən QHT-lərlə səmərəli əməkdaşlıq əlaqələri qurulmasına diqqət yetirilmiş, insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşan dövlət orqanları təcrübəsində ilk dəfə Ombudsmanın yanında müstəqil Ekspertlər Şurası yaradılmışdır. Əhalinin müxtəlif təbəqələrinin hüquqlarının daha etibarlı təmin edilməsi məqsədilə Ombudsmanın qadınların, uşaqların, ahılların, əlilliyi olan şəxslərin, qaçqın və məcburi köçkünlərin, miqrantların, məhkumların, hərbi qulluqçuların hüquqlarının müdafiəsi, habelə insan alveri və korrupsiya ilə mübarizə və digər problemlər üzrə ixtisaslaşmış müşavirləri fəaliyyət göstərirlər.

Eyni zamanda Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi - Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsi və Liderlik Məktəbi, qadın hüquqları üzrə resurs mərkəzi - BMT-nin İqtisadi və Sosial Şurası ilə Məsləhətçi Statuslu ölkəmizdə yeganə qadın qeyri-hökumət təşkilatı olan Azərbaycan Qadın və İnkişaf Mərkəzi, Ahılların hüquqları üzrə resurs mərkəzi fəaliyyət göstərir. Hər bir resurs mərkəzi müntəzəm fəaliyyət göstərir və tədbirlər həyata keçirir.

Müvəkkilin əhalinin müxtəlif kateqoriyalarının hüquqi biliklərə yiyələnməsinə, insan hüquqları sahəsində məlumatlılıq səviyyəsinin artırılmasına yönəlmiş hüquqi maarifləndirmə fəaliyyəti inkişaf etdirilir.

İnsan hüquqları təhsili istiqamətində Bakı Dövlət Universitetində "İnsan hüquqları", habelə "Genderə giriş" fənlərinin müstəqil fənn kimi tədrisinə, yeni nəsil hüquqşünaslar, sosial işçilər və ixtisaslaşmış psixoloqların hazırlanması işinin təşkilinə nail olunmuşdur. Bakı Dövlət Universitetində müvəkkilin təşəbbüsü ilə "İnsan hüquqları və informasiya hüququ üzrə UNESCO" kafedrası da yaradılmış, bakalavr və magistr pilləsində insan hüquqları üzrə kadr hazırlığına başlanılmaqla bu sahəyə elmi yanaşma nümayiş etdirilir.

İnsan hüquqları sahəsində kadrların hazırlanması işinə də fəaliyyət çərçivəsində geniş yer verilir. Bu baxımdan Ombudsman Aparatında yaradılmış "İnsan hüquqları sahəsində xüsusi qısamüddətli təhsil şəbəkəsi" fəaliyyətini davam etdirməkdədir. Bu təhsil şəbəkəsinin proqramına insan hüquqlarının və azadlıqlarının əsasları, milli və beynəlxalq qanunvericilik aktları, Ombudsman institutunun mahiyyəti, ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatlar, insan hüquqlarının milli və beynəlxalq müdafiə mexanizmləri, müraciətetmə qaydaları və s. mövzularda məruzələr və seminarlar daxil edilmişdir. Belə ki, Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti, Qafqaz Universitetinin Hüquq, Beynəlxalq hüquq və beynəlxalq münasibətlər, Siyasi idarəetmə, Regionşünaslıq və beynəlxalq münasibətlər, İqtisadiyyat və idarəetmə, Beynəlxalq münasibətlər fakültələrinin tələbə və magistrantları burada istehsalat təcrübəsi keçirlər.

İnsan hüquqları təhsili və hüquqi maarifləndirmə baxımından Ombudsman təcrübəsində formalaşdırılan müsbət cəhətlərdən biri də uşaqların təlimçi kimi iştirakçılığı ilə həyata keçirilən "Uşaq hüquqlarının pilləli tədrisi" proqramıdır. Təhsil Nazirliyi ilə əməkdaşlıqda orta ümumtəhsil məktəblərində insan hüquqları təhsili bazasında həyata keçirilən uşaq hüquqlarının pilləli tədrisi paytaxtda və respublikanın regionlarında geniş tətbiq olunmaqla, insan hüquqları mədəniyyətinin təbliğinə, cəmiyyətdə və məktəb mühitində insan hüquqlarının tərkib hissəsi kimi uşaq hüquqlarının reallaşdırılmasına və tədrisinə xidmət etməklə həmyaşıddan həmyaşıda prinsipi əsasında tətbiq olunur. Ümumilikdə 2009-2010-cu tədris ilindən etibarən hər il keçirilən layihəyə ölkədəki 130-dan çox məktəb cəlb edilmiş, bu prosesdə fərqlənmiş 7500-dən artıq şagird Ombudsman tərəfindən sertifikatla təltif edilmiş, 600-dən çox müəllim və direktor təşəkkürnamə almışdır.

Müvəkkil yarandığı dövrdən ölkə daxilində müvafiq qurumlarla yanaşı, insan hüquqları ilə bağlı Azərbaycanın qoşulduğu beynəlxalq sənədlərə uyğun olaraq BMT-nin saziş qurumları, Avropa Şurası və bu təşkilatların ölkəmizdəki nümayəndəlikləri ilə sıx əməkdaşlıq əlaqələri qurulmuşdur. BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forst qəbul edilmiş, ölkədə insan hüquqları müdafiəçilərinin hüquqlarının təmini ilə bağlı müzakirələr aparılmışdır. Ombudsman BMT-nin İşgəncələrin qarşısının alınması üzrə Alt Komitəsinin (SPT) nümayəndə heyətinin rəhbəri Aişə Şujun Muhammədi və onu müşayiət edən həmin qurumun üzvlərini, həmçinin İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) nümayəndə heyətinin üzvləri - James John McManus və Alexander Todorov Minçevi də qəbul etmişdir. Azərbaycan Ombudsmanı bu əməkdaşlıq əlaqələri kontekstində Avropa Birliyinin Şərq tərəfdaşlığı və Tvinninq layihələrində aktiv iştirak etməkdədir. Bununla yanaşı, müvəkkil Avropa Birliyinin TAİEX proqramından da yararlanmaqdadır.

İnsan hüquqlarının müdafiəsi sahəsində fəaliyyətinə görə Azərbaycan Ombudsmanı Beynəlxalq və Avropa Ombudsmanlar institutlarına, habelə Asiya Ombudsmanlar Assosiasiyasına üzv qəbul olunmuşdur. Yeri gəlmişkən, 2015-ci ilin noyabr ayında növbəti dörd il üçün Asiya Ombudsmanlar Assosiasiyasının Direktorlar Şurasının iclasında Azərbaycan Ombudsmanı həmin Assosiasiyanın vitse-prezidenti vəzifəsinə seçilmişdir.

27 oktyabr 2006-cı il tarixdə Milli İnsan hüquqları Təsisatlarının Beynəlxalq Əlaqələndirmə Komitəsi tərəfindən Milli İnsan hüquqları Təsisatı kimi Azərbaycan Ombudsmanının fəaliyyəti Paris prinsiplərinə cavab verdiyinə görə "A" statusu ilə akkreditasiya olunmuş, 2012-ci ildə müvəkkilin fəaliyyəti yenidən monitorinq edilmiş, onun "A" statusu reakreditasiya olunmuş və Paris Prinsiplərinə uyğun müstəqil fəaliyyət göstərdiyi BMT səviyyəsində bir daha təsdiqlənmişdir. Ombudsmanın bu statusa malik olması BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının iclaslarında iştirak edərək ölkəmizin mənafeyi naminə gündəliyə salınması üçün təkliflər irəli sürür. Bu, saziş qurumlarına paralel hesabatlar verməsinə böyük imkanlar da yaratmışdır və ötən dövrdə hesabatlar uğurla verilmişdir.

Eyni zamanda bu status BMT-nin İnsan Hüquqları Şurasının hər bir iclasın da Ombudsmanın və əməkdaşlarının iştirakına və məsələ qaldırmasına imkan verir. Həmin konfranslarda ölkəmizdə insan hüquqlarının vəziyyəti, müsbət təcrübələrimiz və Azərbaycan həqiqətləri bir daha iştirakçıların diqqətinə çatdırılır.

Yeri gəlmişkən, BMT-nin İnsan Hüquqları Şurasının Cenevrədə keçirilmiş, Genosid cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair Konvensiyanın 65-ci ildönümünə həsr edilmiş 25-ci sessiyasında müvəkkilin genosidin qarşısının alınması, həmçinin Xocalı soyqırımı üzrə bəyanatları qurumun rəsmi sənədləri sırasında qeydiyyata alınmış, internet səhifəsində yerləşdirilmiş və çap edilərək iştirakçılara paylanmışdır.

Fəaliyyətimiz dövründə erməni təcavüzü, Xocalı soyqırımı, insan hüquqları ilə bağlı 114 bəyanat qəbul edərək BMT-nin Baş Katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycan diaspor təşkilatlarına ünvanlanmış, bu qurumlar tərəfindən rəsmi qeydə alınmış və bəzilərinin saytlarında yerləşdirilmişdir.

Ötən dövrdə Ombudsman və əməkdaşları 450-dən çox beynəlxalq konfransda iştirak edərək, çıxış və məruzələr etmiş, bəyanatlarımızı səsləndirmişlər. Eyni zamanda bu dövrdə xarici ölkələrin Ombudsmanları - Polşa, Rusiya Federasiyası, onun subyektləri olan Moskva, Sverdlovsk, Saratov, Orenburq, Kaluqa vilayətləri, Dağıstan Respublikası, Tatarıstan Respublikası, Ukrayna, Özbəkistan, Gürcüstan, Moldova və Pakistan Ombudsmanı ilə əməkdaşlıq haqqında on dörd saziş imzalanmış və icraatdadır. Bu sazişlərin məqsədi qarşılıqlı əməkdaşlıqda soydaşlarımızın hüquqlarının səmərəli şəkildə müdafiəsini təmin etmək, ölkəmiz haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ombudsman təsisatı ölkəmizdə məhkəmədənkənar insan hüquqlarının müdafiəsi orqanı olan ilk mexanizm kimi zərurətdən yaranmış və uğurlu olmuşdur. Əminliklə deyə bilərik ki, bundan sonra da hər bir kəsin hüquqlarının və layiqli həyatının təmin olunmasına, dayanıqlı inkişaf məqsədlərinə xidmət etməklə yeni nailiyyətlər əldə ediləcəkdir.

***Elmira SÜLEYMANOVA,***
***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)***